# Qərb Qafqazda sülhə mane olur

## Ermənistanın silahlandırılması, hərbi yardımlar bunu təsdiqləyən faktlardır

Həm Qərb, həm də ABŞ tərəflər arasında sülh müqaviləsinin imzalanmasının vacibliyini vurğulayırlar. Amma real faktlar göstərir ki, onlar bunu yalnız sözdə ifadə edirlər. Çünki hər kəsin şahidlik etdiyi son proseslər deməyə əsas verir ki, onlar Cənubi Qafqazda sülhün, təhlükəsizliyin bərqərar olmasında maraqlı deyillər.

Təkcə son iki proses bunu bir daha təsdiqləyir. Bunlardan biri "Avropa Sülh Fondu"ndan Ermənistana 10 milyon avroluq vəsaitin verilməsi, digəri isə aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan Silahlı Qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnikanın təhvil verilməsidir. Bundan əlavə, Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçikölçülü minalar və digər döyüş sursatları da gətirilib.

→ 7

AZƏRBAYCAN

9 avqust 2024-cü il

RƏSMİ DÖVLƏT QƏZETİ

# Qərb Qafqazda sülhə mane olur

## Ermənistanın silahlandırılması, hərbi yardımlar bunu təsdiqləyən faktlardır

**Dörd ilə yaxındır ki, Azərbaycanla Ermənistan arasında aparılan sülh danışıqları hələ də nəticəsiz qalır. Bunun səbəbi isə məğlub ölkənin qalib Azərbaycanın şərtlərini yerinə yetirməməsidir.**

Azərbaycan Prezidentinin xüsusi tapşırıqlar üzrə nümayəndəsi Elçin Əmirbəyov bir neçə gün əvvəl Vaşinqtonda baş tutan danışıqlardan sonra Ermənistanla sülh müqaviləsinin hansı şərtlərlə imzalana biləcəyi ilə bağlı rəsmi Bakının mövqeyini açıqlayarkən deyib ki, Ermənistan Konstitusiyası dəyişdirilməyənə qədər sülh müqaviləsinin imzalanması mümkün deyil.

Elçin Əmirbəyov vurğulayıb ki, bu sənəddə Azərbaycana qarşı ərazi iddiaları var. Hazırda bu, sülh prosesinin qarşısında duran yeganə maneədir: "Əmin olmaq istəyirik ki, Ermənistanla sülh sazişi gələcəkdə onun revanşizmə qayıdışını və ya Azərbaycana qarşı ərazi iddialarını mümkünsüz edəcək. Ermənistanın sülh danışıqlarına, müqavilənin imzalanmasına öz hərbi potensialını gücləndirmə, tarixi yeni başlanğıc fürsətinə qarşı pozuculuq taktikası yürütmə fürsəti kimi baxması bizim üçün qəbuledilməzdir".

Həm Qərb, həm də ABŞ tərəflər arasında sülh müqaviləsinin imzalanmasının vacibliyini vurğulayırlar. Amma real faktlar göstərir ki, onlar bunu yalnız sözdə ifadə edirlər. Çünki hər kəsin şahidlik etdiyi son proseslər deməyə əsas verir ki, onlar Cənubi Qafqazda sülhün, təhlükəsizliyin bərqərar olmasında maraqlı deyillər.

Təkcə son iki proses bunu bir daha təsdiqləyir. Bunlardan biri "Avropa Sülh Fondu"ndan Ermənistana 10 milyon avroluq vəsaitin verilməsi, digəri isə aprelin 5-də Brüsseldə imzalanmış sənədin hərbi əməkdaşlığı nəzərdə tutan məxfi hissəsinə uyğun olaraq, Ermənistan Silahlı Qüvvələrinə ABŞ istehsalı olan yeni nəsil silahlar - snayper tüfəngləri, gecəgörmə cihazları, xüsusi rabitə vasitələri, zirehli texnikanın təhvil verilməsidir. Bundan əlavə, Ermənistan xüsusi təyinatlıları üçün ABŞ ordusunda istifadə edilən mini-hücum pilotsuz təyyarələri, kiçikölçülü minalar və digər döyüş sursatları da gətirilib.




Adı "sülh fondu" olan qurumun ayırdığı 10 milyon avro Ermənistanın silahlı qüvvələrində modernləşdirmə prosesi aparmaq üçündür, yəni yeni silahların alınması və digər istiqamətlərdə xərclənəcək vəsait kimi nəzərdə tutulub.

"Caliber.az" saytının yaydığı məlumata əsasən, 2-3 avqustda ABŞ-nin Rumıniya və Yaxın Şərqdəki hərbi bazalarından Ermənistanın Zvartnots hava limanına 2 hərbi təyyarə qalxıb. Bu barədə "Flightradar" qlobal uçuş izləmə xidmətinin məlumatında deyilir. Belə ki, ABŞ Silahlı Qüvvələrinə məxsus "Boeing C-17" hərbi yük təyyarəsi ilə şəxsi heyət hərbi yüklərlə birlikdə Zvartnots hava limanına gətirilib. Bundan əvvəl ABŞ Ermənistan xüsusi təyinatlıları üçün bu sursatlardan istifadə üzrə təlimlər keçirib, sonra Hayastan tərəfi silahları real şəraitdə sınaqdan keçirmək üçün Kəlbəcər istiqamətində Azərbaycan Ordusunun bölmələrinə qarşı hərbi təxribat törədib.

ABŞ hərbi yük təyyarələri ilə Ermənistana gətirilən silahların yerli relyef və hərbi şəraitə uyğunlaşdırıldığı da bildirilir.

Ancaq bu, hamısı deyil. ABŞ təbii olaraq bu missiyanı erməni hərbçilərinə həvalə etməyib, bu cihazları idarə edəcək 30-50 nəfəri də çatdırıb. Rusiya və İranın diqqətini İranla sərhəddə yerləşdiriləcək şəxsi heyətə cəlb etməmək üçün hərbçilər diqqətlə seçilib - onların əksəriyyəti Amerika ordusunda xidmət edən erməniəsilli ABŞ vətəndaşlarıdır. Postsovet ölkələrindən ABŞ-yə köçmüş slavyan və qafqazlı insanlardan ibarət şəxsi heyət Ermənistan Silahlı Qüvvələrinin hərbi geyimi ilə təchiz olunub və Ermənistan Silahlı Qüvvələrinin Zəngəzurdakı hərbi bazasında yerləşdirilib.

ABŞ-nin Ermənistanı gizli şəkildə ölümcül sularla təmin etməsinin arxasında nə dayanır? Məqsəd aydındır.

Bir tərəfdən Fransa, digər tərəfdən ABŞ-nin Ermənistanı silahlandırması bu qüvvələrin əslində Qafqazda yeni münaqişə ocağının yaranmasında maraqlı olduqlarını göstərir. Görünən budur ki, Qərb regionda çox təhlükəli strategiyasını həyata keçirir. Ermənistanın hücum təyinatlı silahlarla silahlandırılması gələcəkdə regionda münaqişənin yenidən alovlanmasını şərtləndirə bilər.

Hazırda Qərb Ermənistandan Cənubi Qafqaz regionunda Rusiyaya qarşı plasdarmın yaradılması üçün aktiv istifadə edir.

Əlbəttə ki, Azərbaycan bütün prosesləri izləyir və Ermənistanın silahlandırılması faktlarını görür. Əgər Ermənistan düşdüyü acınacaqlı durumdan qurtulmaq istəyirsə, sülh müqaviləsini imzalamalıdır. Yox, əgər məğlub ölkə revanşa hazırlaşırsa, onda yaxşı anlamalıdır ki, savaş baş versə, ABŞ-nin, Hindistanın, Fransanın silahları, texnikaları Azərbaycan Ordusunun arsenalına daxil olacaq, Bakıdakı Hərbi Qənimətlər Parkının eksponatlarının sayı artacaq.

*Rəşad BAXŞƏLİYEV,*
*"Azərbaycan"*